# TOPÇUBAŞOV
# ARBİTRAJ MÜSABİQƏSİ
# 2025

# QAYDALAR

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ **TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ**
TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Veb-sayt: mcs.bsulawss.org
E-poçt: mootcourtsociety@bsulawss.org

# MÜNDƏRİCAT

I. Ümumi müddəalar ..... 3
II. Yazılı memorandumlar ..... 5
III. Şifahi raundlar ..... 7
IV. Şifahi mərhələ ..... 8
V. Yarımfinal və Final mərhələsi ..... 8
VI. Qiymətləndirmə və sıralama ..... 9
VII. Tətbiq olunan hüquq ..... 11
VIII. Cəzalar ..... 11
IX. Nominasiyalar ..... 12

# I. Ümumi müddəalar

**I.1.** **Müsabiqə haqqında.** Topçubaşov Arbitraj Müsabiqəsi (bundan sonra "Müsabiqə"; ingiliscə: *Topchubashov Arbitration Moot*) Əlimərdan bəy Topçubaşovun xatirəsinə həsr olunmuş mübahisələrin alternativ həll üsullarından biri olan arbitraj institutunun öyrənilməsinə əsaslanan Müsabiqədir. Müsabiqə Bakı Dövlət Universiteti Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyəti (bundan sonra "TEC" və ya "Təşkilatçı") nəzdində fəaliyyət göstərən Məhkəmə Müsabiqə Cəmiyyəti tərəfindən təşkil edilir.

**I.2.** **TEC**. TEC fakültədə akademik layihələri həyata keçirən təşkilatdır. O, Topçubaşov Arbitraj Müsabiqəsinin təşkilatçısı və idarəçisi kimi çıxış edir. Koordinatorlar TEC İdarə Heyətindən təyin edilir və Müsabiqə iştirakçısı ola bilməzlər. Müsabiqənin TEC tərəfindən Baş Koordinatoru kimi təyin olunmuş şəxs Təşkilatçı adından kommunikasiyalarda iştirak edir. Müsabiqənin TEC tərəfindən təyin olunmuş koordinatorları Baş Koordinatorun nəzarəti altında təşkilatçılığı icra edirlər.

**I.3.** **Mübahisələrin həlli.** Təşkilatçı Qaydaların tətbiqi ilə bağlı mübahisələri həll edir, Müsabiqə gedişində ortaya çıxan və Qaydalarla tənzimlənməyən məsələlər barədə qərar verir. Təşkilatçı bu məsələlər üzrə yekun instansiyadır. Komandalar Qaydaların tətbiqi ilə bağlı mübahisələr istisna olmaqla, digər mübahisələri həll etməsi və ya komandalar arasındakı mübahisələrdə vasitəçilik etməsi üçün koordinatorlara müraciət edə bilməz.

**I.4.** **Qaydaların tətbiq dairəsi.** Bu Qaydalar Müsabiqənin bütün gedişatını tənzimləməklə 2025 Topçubaşov Arbitraj Müsabiqəsi üçün keçərlidir. Komandaların keçmiş təcrübə və qaydalara istinad etməsi məqbul səbəb kimi qiymətləndirilmir. Qaydalar ilə bağlı suallar Müsabiqənin rəsmi e-poçtuna yönləndirilməlidir: mootcourtsociety@bsulawss.org

**I.5.** **Qaydaların izahı.** Müsabiqə iştirakçıları qaydaların izahı üçün koordinatorlara müraciət edə bilərlər. Qaydaların izahı və digər əlaqəli məsələlərlə bağlı qərarların verilməsi koordinatorların diskresion səlahiyyətləri daxilindədir.

**I.6.** **Müsabiqə işi.** Təşkilatçı Müsabiqə Təqvimində göstərilən tarixdə Müsabiqə İşini (bundan sonra "İş") Müsabiqə veb-saytında yerləşdirir. Müsabiqə bu İşdəki hüquqi məsələlər barədə iştirakçı komandaların formalaşdırdığı hüquqi arqumentlər üzrə aparılır.

**I.7.** **Uyğunluq.** Bakalavr və magistr təhsili alan hüquq tələbələrindən təşkil olunmuş komandalar Müsabiqədə iştirak edə bilərlər.

**I.8.** **Qeydiyyat.** Müsabiqədə iştirak etmək istəyən komandalar müvafiq veb-saytda – www.mcs.bsulawss.org/arbitration – qeydiyyatdan keçməlidir.

**I.9.** **Komanda nömrəsi.** Qeydiyyatdan keçdikdən sonra hər bir komanda qeydiyyat sırasına müvafiq olaraq nömrələnir və nömrə barədə koordinatorlar tərəfindən komandalara məlumat verilir. Müsabiqənin gedişində komanda göstəricisi kimi bu nömrədən istifadə edilir.

**I.10.** **Say.** Hər bir komanda qeydiyyat zamanı ən azı 2 (iki), ən çoxu isə 6 (altı) üzvdən ibarət olmalı və hər bir üzv qeydiyyat zamanı bəyan edilməlidir. Əgər üzvlərdən biri komandanı tərk edərsə, həmin yerin əvəzləşdirilməsi I.12-ci müddəada göstərilmiş qaydalara uyğun həyata keçirilir. İmtina və komanda üzvlərinin əvəzləşdirilməsi üçün son tarix Müsabiqə Təqvimində qeyd olunur.

**I.11.** **Nümayəndə.** Hər bir komanda Təşkilatçı ilə kommunikasiyalarda komandanı təmsil etmək üçün üzvlərindən birini nümayəndə kimi təyin etməlidir. Qeydiyyat zamanı nümayəndənin işlək mobil əlaqə nömrəsi və e-poçt ünvanı təqdim olunmalıdır.

**I.12.** **Müsabiqədən imtina və komanda tərkibinin dəyişdirilməsi.** Müsabiqə Təqvimində komandanın Müsabiqədən imtinası və ya komanda tərkibinin dəyişdirilməsi barəsində məlumatın verilməsinin son tarixi (imtina/dəyişdirilmə son tarixi) müəyyənləşdirilir. Əgər üzv imtina/dəyişdirilmə son tarixindən əvvəl komandanı tərk edirsə və ya yeni üzv əlavə edilirsə, tərkibin dəyişdirilməsi barədə məlumat e-poçt vasitəsilə Təşkilatçıya verilir və bu məlumat imtina/dəyişdirilmə son tarixindən əvvəl verildiyi təqdirdə dəyişdirilmə həyata keçirilə bilər. Bütün Komanda Müsabiqədə iştirakdan imtinası barədə məlumatı Təşkilatçıya yalnız imtina/dəyişdirilmə son tarixindən öncə verərsə, Müsabiqəni tərk edə bilər. İmtina/dəyişdirilmə son tarixinə kimi 2 (iki) nəfərdən az üzvü olan Komanda Müsabiqədən xaric edilmiş sayılır.

**I.13.** **Şifahi çəkişmədə iştirak etməmə.** Bu müddəa şifahi mərhələyə keçmiş komandalara aiddir. Əgər komanda Təqvimə uyğun şifahi çəkişmələrdə iştirak etməzsə, Təşkilatçı tərəfindən növbəti illərdə sözügedən komandanın üzvlərinin iştirakı ilə bağlı müvafiq tədbirlər tətbiq oluna bilər.

**I.14.** **Proseslərin səs yazısına alınması və video, foto, habelə digər çəkilişlərin aparılması.** Proseslərin səs yazısına alınması və video, foto, habelə digər çəkilişlərin aparılması yalnız arbitrlərin və digər komanda üzvlərinin razılığı ilə mümkündür.

**I.15.** **Vicdanlılıq prinsipi.** Hər bir iştirakçıdan memorandumların hazırlanmasında və şifahi çəkişmələrdə iştirak zamanı vicdanlılıq prinsipinə əməl etmələri tələb olunur. Bu prinsipə əməl olunmadığı ortaya çıxarsa, bu pozuntu qiymətləndirmə zamanı nəzərə alınır.

**I.16.** **Xaricdən dəstək**. Müsabiqədə iştirak komanda işidir. Heç bir komanda üzvü Müsabiqənin hər hansı mərhələsi ilə bağlı öz komanda üzvü olmayan hər hansı şəxslə məsləhətləşə, kömək ala, təklif qəbul edə bilməz. Hər iştirakçı komanda yazılı və

şifahi təqdimatları üçün hüquqi arqumentlərini yalnız özü araşdırmalı, yazmalı, redaktə etməli və formalaşdırmalıdır.

**I.17.** **Arbitrlər.** Təşkilatçı praktiki hüquqşünaslar/arbitrlər arasından Müsabiqə arbitrlərini təyin edir. Arbitrlər yazılı memorandurmlar və şifahi çıxışlar barədə Müsabiqə məqsədlərinə uyğun olaraq qiymətlər və qərarlar verir. Arbitrlərin verdiyi qiymətlər və qərarlar qətidir, mübahisələndirilə bilməz.

# II. Yazılı memorandumlar

**II.1.** **Tələb.** Hər bir qeydiyyatdan keçən komanda Müsabiqədə irəliləmək üçün iddiaçı memorandumu təqdim edir:

**İddiaçı Memorandumu.** Hər bir komanda iddiaçının mövqeyini dəstəkləyən memorandum yazaraq müsabiqənin veb-saytında yerləşən komanda səhifəsi vasitəsilə təqdim edir. Müvafiq vaxta qədər iddiaçı memorandumunu göndərməyən komandalara VIII.2-ci bəndə uyğun olaraq tədbir görülür.

İddiaçı memorandumlarının qiymətləndirilməsində ən yaxşı nəticə göstərən 10 (on) komanda şifahi mərhələyə keçir.

**Cavabdeh Memorandumu.** Şifahi mərhələyə keçən hər bir komandaya başqa rəqib komandanın iddiaçı memorandumu təqdim edilir. Komandalar onlara təqdim olunmuş iddiaçı memorandumuna cavab xarakteri daşıyan cavabdeh memorandumunu yazaraq Müsabiqənin veb-saytında yerləşən komanda səhifəsi vasitəsilə təqdim edir. Cavabdeh memorandumu iddiaçı memorandumundakı arqumentlərə cavab verməlidir. Belə ki, arbitrlər, əsasən, cavabdeh memorandumunu müvafiq iddiaçı memorandumundakı arqumentlərə hansı dərəcədə cavab verməsi əsasında qiymətləndirirlər. Bununla yanaşı, komandaların cavabdeh memorandumunda yazdıqları onlara verilmiş iddiaçı memorandumunda qeyd edilən məsələlərə cavab verməklə məhdudlaşmır. Komandalar rəqib komandanın iddiaçı memorandumunda yazılanlardan asılı olmayaraq cavabdeh memorandumunda zəruri bildiyi məsələləri qeyd edə bilər.

**II.2.** **Tərkib.** Memorandum aşağıdakılardan ibarət olmalıdır:

i. Üz səhifəsi;
ii. Mündəricat;
iii. İstifadə olunmuş mənbələr;
iv. Faktların təqdimatı;
v. Arqumentlərin xülasəsi;
vi. Arqumentlər;
vii. Arbitraja müraciət.

**II.3.** **Üz səhifəsi.** Üz səhifəsində aşağıdakı məlumatlar göstərilməlidir:

i. Arbitraj adı (Topçubaşov Beynəlxalq Arbitrajı);
ii. Tərəflərin təyinatı (iddiaçı/cavabdeh) ilə birgə adları;
iii. Komanda nömrəsi və ona bitişik olaraq memorandumun iddiaçı və ya cavabdeh mövqeyindən olmasını göstərmək üçün müvafiq olaraq İ və ya C;
iv. Memorandumun təqdimat tarixi.

**Qeyd:** Üz qabığında və ya memorandum daxilindəki mətndə komanda üzvlərinin adlarından istifadə oluna bilməz.

**II.4.** **Həcm.** Hər bir memorandum bütün hissələr daxil edilməklə maksimum 7000 (yeddi min) sözdən ibarət ola bilər.

**II.5.** **Yazı stili.** Memorandumda istifadə olunan yazı şrifti Times New Roman, yazının ölçüsü 12 (on iki) olmalıdır. Başlıqlar yazının digər hissələrindən fərqləndirilə bilmək üçün nisbətən böyük ölçülərlə verilə bilər. Memorandumun üz səhifəsi bu tələblərə uyğun olmadan, yəni fərqli stildə tərtib oluna bilər.

**II.6.** **İstinadlar.** Memorandumlar mübahisənin həlli ilə bağlı arbitrlərin istifadəsi üçün praktiki olaraq hazırlanmalıdır. Buna görə də istinadların məqsədi irəli sürülən arqumenti gücləndirmək və ya əsaslandırmaq olmalıdır. İstinadlar mətn daxilində verilməli və mümkün olduğu qədər qısa formatda yazılmalıdır; istinad olunan mənbənin tam adı isə İstifadə olunmuş mənbələr siyahısında qeyd edilməlidir. İstinadların BDU Tələbə Hüquq Jurnalının istinadlarla bağlı tələblərinə uyğun olması tövsiyə edilir: https://bsulawreview.org/submission/policy.

**II.7.** **Təqdimat tarixi.** Bütün memorandumlar Təqvimdə göstərilən tarixə kimi təqdim olunmalıdır (VIII.2. qayda nəzərə alınmaqla). Əks halda komanda Müsabiqədə iştirak hüququndan məhrum olur.

**II.8.** **Təqdimat qaydası.** İştirakçı komanda hər iki memorandumu uyğun *Microsoft Word* (*.docx) formatında Müsabiqə veb-saytındakı müvafiq bölmə vasitəsilə təqdim etməlidir. Memorandumlar lazımi qaydada adlandırılaraq təqdim edilməlidir. Fayl adı komanda nömrəsindən və memorandumun İddiaçı və ya Cavabdehə aid olmasını göstərmək üçün müvafiq olaraq "İ" və ya "C" hərflərindən ibarət olur (məsələn, 2İ, 2C).

**II.9.** **Təkrar təqdimat.** Memorandumlar təqdimat üçün müəyyən olunmuş son tarixə qədər bir neçə dəfə təkrarən təqdim edilə bilər. Bununla da, Təqvimdə müəyyən olunmuş son tarixdən əvvəlki ən son təqdimat Müsabiqə məqsədləri üçün rəsmi olaraq yekun təqdimat kimi qəbul edilir. Komanda həmin tarixdən sonrakı təqdimatının əsas alınmasını tələb edərsə, Təşkilatçı VIII.2. qaydada nəzərdə tutulan

cəzanı tətbiq etməklə yeni təqdimatı nəzərə alır. Bu halda yalnız bir dəfə təkrar təqdimat imkanı tanınır.

**II.10.** **Memorandumlardan istifadə.** Bütün göndərilən memorandumlar Təşkilatçının səlahiyyətinə keçir. Təşkilatçı memorandumlardan onların Qaydalara, müəyyən olunan söz sayı və digər məhdudiyyətlərə uyğunluğunu yoxlamaq, Qaydalar pozulduğu halda cəza tətbiq etmək və arbitrlərə qiymətləndirmə üçün göndərmək üçün istifadə edir. O, ən yüksək qiymətləndirilən memorandumları öz diskresion səlahiyyəti daxilində sonrakı illərdə başqa iştirakçılar tərəfindən nümunə kimi oxunula bilməsi də daxil olmaqla müxtəlif qanuni məqsədlər üçün istifadə edə bilər.

**II.11.** **Qarşı tərəfin memorandumları.** Təşkilatçı şifahi mərhələdə iştirak edən komandalara qarşılaşacaqları rəqib komandaların müvafiq memorandumlarını komanda səhifəsində yerləşdirir.

## III. Şifahi raundlar

**III.1.** **Tərəflər**. Şifahi raundda bir komanda iddiaçı kimi, başqa bir komanda isə cavabdeh kimi çıxış edir. Hər komanda iki nəfərlə raundda təmsil olunur. Əvvəlcə, iddiaçı komandanın iki üzvü ard-arda arbitrlər qarşısında çıxış edir, sonra cavabdeh komandanın iki üzvü ard-arda raundu davam etdirir.

**III.2.** **Müddət.** Hər bir tərəfin şifahi çəkişmə üçün vaxtı 30 (otuz) dəqiqə ilə məhdudlaşır. Arbitrlərin verdiyi suallara cavab da natiqin çıxış etdiyi vaxta daxildir. Arbitrlərin istəyi ilə natiqə vaxt bitəndən sonra da çıxışını sonlandırmaq imkanı verilə bilər. Arbitrlər təkzibin (əks-təkzib) olub-olmamasını müəyyənləşdirirlər. Təkzib üçün hər bir tərəfə ayrılan vaxt maksimum 3 (üç) dəqiqədir və natiqin ümumi çıxış vaxtına daxildir. Bir komanda üzvü bir şifahi raundda 20 (iyirmi) dəqiqədən artıq çıxış edə bilməz. Hər bir komanda raunddan əvvəl raundu idarə edən Müsabiqə koordinatoruna üzvləri arasındakı vaxt bölgüsü barədə məlumat verir. Həmin koordinator raund ərzində istifadə edilən vaxta nəzarət edir və *20, 15, 10, 5, 3, 1, Dayan* yazılı çap olunmuş kağızlarla hər fərd üçün qalan vaxtı raund iştirakçılarına nümayiş etdirir.

**III.3.** **İstinad.** Hər bir iştirakçı komandanın tərtib etdiyi hər hansı memorandumda istinad olunub-olunmamasından asılı olmayaraq şifahi çəkişmədə qanunvericiliyə, məhkəmə işinə və ya nəşrə istinad edilə bilər.

**III.4.** **Çap olunmuş memorandumlar.** İştirakçı komanda təyin olunmuş şifahi raund başlamazdan öncə mövqeyinə aid memorandumu A4 ölçülü kağız daşıyıcıda olmaqla 4 (dörd) nüsxədə koordinatora təqdim etməlidir.

**III.5.** **Çıxışlar.** İddiaçı və cavabdeh tərəf İş üzrə müvafiq olaraq öz mövqelərini müdafiə edən arqumentlər və əks-arqumentlər əsasında çıxış edirlər. Çıxış zamanı natiqin öz komanda üzvü və ya üzvləri, həmçinin digər kənar şəxslərlə danışması və ya hər hansı

şəkildə əlaqə saxlaması qadağan olunur. Komandalar yalnız memorandumda qeyd edilən arqumentlərlə məhdudlaşdırılmırlar, lakin ilk raundlarda memorandum əsasında çıxış etmək daha məqsədəmüvafiqdir. Şifahi raundlar digər komandalar üçün qapalı keçirilir.

**III.6.** **Kommunikasiya.** Çəkişmə zamanı çəkişmə tərəfi olan komanda üzvləri arasında kommunikasiya və ya müzakirə yalnız kağızda yazı ilə edilə bilər və mobil cihazlardan, eləcə də digər bu kimi texniki vasitələrdən istifadə qadağandır.

**III.7.** ***Ex parte* proses.** Komanda çıxmalı olduğu raund üçün Təşkilatçının təyin etdiyi vaxtda gəlməzsə və ya çıxış üçün kafi tərkibdə olmazsa, Təşkilatçı 15 (on beş) dəqiqə gözlədikdən sonra mövcud halları nəzərə alaraq raundun *ex parte* keçirilməsinə qərar verə bilər. Bu halda raund yalnız qarşı tərəfin çıxışının qiymətləndirilməsi ilə baş tutur.

## IV. Şifahi mərhələ

**IV.1.** **İştirakçılar.** Şifahi mərhələnin iştirakçıları iddiaçı memorandumlarının qiymətləndirilməsi nəticəsində balı ən yüksək olan 10 (on) komandadır.

**IV.2.** **İştirak tələbi.** Hər bir iştirakçı komanda şifahi mərhələdə bir dəfə iddiaçı, bir dəfə cavabdeh olmaqla iki dəfə çıxış edir. İştirakçı komanda sayını və mövcud şəraiti nəzərə alaraq Təşkilatçı iştirakçı komandaların iki dəfə iddiaçı, iki dəfə cavabdeh kimi çıxış etməsinə qərar verə bilər.

**IV.3.** **Qarşılaşmalar.** Şifahi mərhələdə komandaların hansı qarşılaşmada iddiaçı, hansı qarşılaşmada cavabdeh kimi çıxış edəcəyini, habelə raundların vaxtı və yerini Təşkilatçı müəyyən edərək iştirakçı komandaya məlumat verir.

**IV.4.** **Yarımfinala keçid.** Şifahi mərhələ tamamlandıqdan sonra formalaşan sıralama üzrə ən yuxarı 4 (dörd) yeri tutmuş komanda Müsabiqənin Yarımfinal mərhələsinə keçir.

## V. Yarımfinal və Final mərhələsi

**V.1.** **İştirak tələbi.** Yarımfinal mərhələsinə keçmiş hər bir komanda bir dəfə iddiaçı, bir dəfə cavabdeh kimi cəmi iki şifahi raundda çıxış edir.

**V.2.** **Qarşılaşmalar.** Şifahi mərhələnin nəticələrinə uyğun olaraq Təşkilatçı tərəfindən Yarımfinala keçən komandalar arasında püşkatma keçirilməklə hansı komandanın iddiaçı, hansı komandanın cavabdeh kimi çıxış edəcəyi müəyyən olunur. Yarımfinala keçən komandalar əvvəlki raundda çəkişmişlərsə, əvvəlki raundda iddiaçı olan komanda cavabdeh kimi, cavabdeh olan komanda isə iddiaçı kimi çıxış edir.

**V.3.** **Finala keçid.** Yarımfinal mərhələsinin bütün raundları tamamlandıqdan sonra formalaşan sıralama üzrə ən yaxşı nəticə göstərmiş 2 (iki) komanda Final mərhələsinə keçir. Final mərhələsinə keçmiş komandalar yalnız 1 (bir) raundda qarşılaşır.

**V.4.** **Qalibiyyət.** Final mərhələsinin qalibi raund arbitrlərinin qiymətləndirməsi ilə müəyyən edilir. Qalib *"Topçubaşov Arbitraj Müsabiqəsinin Qalibi"* adını, digər komanda isə *"Topçubaşov Arbitraj Müsabiqəsinin Finalisti"* adını qazanır.

# VI. Qiymətləndirmə və sıralama

**VI.1.** **Memorandumlar.** Hər bir memorandum 2 (iki) və ya 3 (üç) arbitr tərəfindən ayrı-ayrılıqda 50-100 bal aralığında qiymətləndirilir. Yəni bir memorandumun arbitrdən ala biləcəyi bal minimum 50, maksimum 100-dür. Memorandum iki arbitr tərəfindən qiymətləndirilərsə üçüncü bal kimi 2 (iki) arbitrin verdiyi balların ədədi ortası nəzərə alınır.

**VI.2.** **Şifahi raundlar.** Şifahi raundda (Final raundu istisna olmaqla) hər çıxış edən üzv üç arbitrin hər biri tərəfindən 50-100 bal aralığında qiymətləndirilir. Həm iddiaçı, həm də cavabdeh tərəfdən iki üzv çıxış etdiyinə görə şifahi qiymətləndirmə üzrə bir komandanın bir arbitrdən ala biləcəyi bal minimum 100, maksimum 200-dür. Fövqəladə hallarda şifahi raund yalnız iki fərqli arbitr tərəfindən qiymətləndirilə bilər. Bu halda şifahi raund üçün üçüncü qiymətləndirmə kimi iki arbitrin verdiyi balların ədədi ortası nəzərə alınır.

**VI.3.** **Raund nəticəsi.** İki komanda arasındakı raundda komandalardan biri qalibiyyət əldə edir. Qalibiyyət qarşılaşan komandaların memorandum balları və şifahi çıxış ballarının müqayisəsi nəticəsində raund balları vasitəsilə müəyyənləşdirilir. Bir raund üzrə raund balları aşağıdakı qaydada hesablanır:

**a) Memorandumlar üzrə raund balları**. Memorandumlara verilmiş aşağı, orta və yuxarı xam balların qarşılaşdırılmasından hər üstünlük komandaya 1 (bir) raund balı qazandırır. Qarşılaşdırılmada üstünlük olmazsa, hər belə göstərici üzrə həm iddiaçı, həm cavabverən 0.5 raund bal alır. Beləcə, bir raundda Memorandumlar üzrə bir komandanın qazana biləcəyi maksimum raund balı 3 (üç) baldır. Məsələn:

| *Tərəf* | *Aşağı* | *Orta* | *Yuxarı* |
|---|---|---|---|
| İddiaçı | 74 | 77 | 79 |
| Cavabdeh | 75 | 76 | 77 |

*Memorandumların xülasəsi*: İddiaçı ikinci və üçüncü bal göstəricisi ilə üstün olmaqla 2 raund balı, cavabdeh ilk bal göstəricisi ilə 1 raund balı qazanır. İddiaçının toplam balı 230, cavabverənin toplam balı 228 olmuşdur.

**b) Şifahilər üzrə raund balları.** Bir arbitrin bir komandaya verdiyi toplam bal digər komandaya verdiyi toplam balı üstələyirsə, komanda həmin arbitrdən 2 (iki) raund balı qazanır. Arbitr hər tərəfə eyni toplam balı verirsə, iddiaçı ilə cavabverən hər biri 1 (bir) raund balı qazanır. Bir komandanın bir raundda üç arbitrdən ala biləcəyi maksimum raund balı 6 (altı) baldır. Məsələn:

| *Komanda* | *Çıxışçı* | *Arbitr 1* | *Toplam* | *Arbitr 2* | *Toplam* | *Arbitr 3* | *Toplam* |
|---|---|---|---|---|---|---|---|
| 10 | 1-ci | 80 | 158 | 79 | 155 | 82 | 160 |
| *İddiaçı* | 2-ci | 78 | | 76 | | 78 | |
| 15 | 1-ci | 78 | 153 | 76 | 150 | 81 | 157 |
| *Cavab*deh | 2-ci | 75 | | 74 | | 76 | |

*Şifahi çıxışların xülasəsi*: İddiaçı birinci, ikinci və üçüncü arbitrin hər birindən daha yuxarı bal almaqla toplam 6 raund balı qazanır. İddiaçı komanda şifahi qiymətləndirmədən 473, cavabdeh komanda isə 460 bal qazanmışdır.

Memorandumlar və şifahi çıxışlar üzrə raund balların cəmlənməsi nəticəsində İddiaçı 8 (səkkiz), cavabverən 1 (bir) yekun raund balı aldığına görə iddiaçı raundun qalibidir. Beləliklə, İddiaçının xeyrinə bir qalibiyyət yazılır.

**VI.4. Raund ballarının bərabərliyi.** Komandaların yekun raund balları bərabər olarsa, memorandum və şifahi çıxışlarda əldə edilən bütün balların ümumi cəmi müqayisə edilir. Ümumi balı daha yüksək olan komanda qalib olur. Raund balları və ümumi ballar bərabər olarsa, hər bir komandanın hesabına bir bərabərlik yazılır və komanda sıralamasında nəzərə alınır.

**VI.5. Sıralama.** Hər mərhələdə sıralama qalibiyyət çoxluğu ilə müəyyən olunur; komandanın müvafiq mərhələdə iştirak etdiyi raundlar üzrə qalibiyyəti nə qədər çoxdursa, sıralamada bir o qədər yuxarı yer alır. Qalibiyyət sayı sıralamanı dəqiqləşdirmək üçün kifayət etmirsə, daha çox bərabərlik əldə etmiş komanda daha yuxarı sırada yer alır. Bərabərlik sayı sıralamanı dəqiqləşdirmək üçün kifayət etmirsə, ardıcıllıq toplanmış ümumi bal üzərindən müəyyən edilir. Ümumi bal da sıralamanı dəqiqləşdirmək üçün kifayət etmirsə, sıralama raund ballarının cəmi əsasında dəqiqləşdirilir.

**VI.5. Sıralamada bərabərlik və ya heç-heçə halı.** Sıralama zamanı bir neçə komanda bir yeri bölüşürsə, sıralamanın dəqiqləşdirilməsi üçün aşağıdakılar ardıcıllıqla bərabərlik aradan qalxana qədər tətbiq olunur:

i. Ən yüksək memorandum qiymətləri çıxarılmaqla, əgər bərabərlik yenə qalsa...

ii. Hər bir arbitr tərəfindən komandaya verilən ən yüksək və ən aşağı şifahi çəkişmə balları çıxarıldıqdan sonra ən yüksək ümumi bal, əgər bərabərlik yenə qalsa...

iii. Hər bir arbitr tərəfindən komandaya verilən ən yüksək və ən aşağı cavabdeh memorandum qiymətləri çıxarıldıqdan sonra ən yüksək ümumi bal, əgər bərabərlik yenə qalsa...
iv. Hər bir arbitr tərəfindən komandaya verilən ən yüksək 2 (iki) və ən aşağı 2 (iki) şifahi çəkişmə balları çıxarıldıqdan sonra ən yüksək ümumi bal, əgər bərabərlik yenə qalsa...
v. Hər bir arbitr tərəfindən komandaya verilən ən yüksək 2 (iki) və ən aşağı 2 (iki) memorandum balları çıxarılmaqla; bərabərlik pozulana qədər. Əgər bərabərlik bu yolla pozulmazsa, Təşkilatçı bunun üçün öz mülahizəsinə əsasən komandaların bir-birinə qarşı əlavə çəkişməsini təyin edə bilər.

**VI.5. Nəticələrin elanı.** Təşkilatçı hər mərhələ üzrə qiymətləndirmə yekunlaşdıqdan sonra hər komandaya iştirak etdikləri raundların qiymətləndirmə hesabatını Müsabiqə veb-saytındakı komanda səhifəsinə yerləşdirir.

# VII. Tətbiq olunan hüquq

**VII.1. Yerli qanunvericilik.** Azərbaycan Respublikası qanunvericiliyinə daxil olan bütün aktlar (o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr) arqumentlərin əsaslandırılması üçün tətbiq oluna bilər.

**VII.2. Xarici praktika və doktrinal mənbələr.** Xarici ölkələrin hüquq praktikasına və akademik/doktrinal mənbələrə də istinad edilə bilər.

# VIII. Cəzalar

**VIII.1. Üz səhifəsi məlumatları.** Hər hansı komandanın memorandumun üz səhifəsi ilə bağlı II.3. qaydanı pozması 2 (iki) balla cəzalandırılır və müvafiq memorandum üzrə hər bir arbitrin balından bu cəza balı çıxılır.

**VIII.2. Memorandumların gec təqdimatı.** Hər hansı bir komanda öz memorandumlarını Müsabiqə Təqvimində nəzərdə tutulmuş son tarixdən sonra II.7 və II.8 qaydalarını pozmaqla təqdim edərsə, həmin tarixdən sonrakı hər 1 (bir) gecikmə günü 5 (beş) balla cəzalandırılır. Bu cəza balı gecikdirilmiş memorandumun arbitrların hər birindən aldığı baldan çıxılır. Komanda memorandumlarını Təqvimdə müəyyən olunmuş son tarixdən sonrakı 5 (beş) gün ərzində ərzində təqdim etmirsə, Müsabiqədən kənarlaşdırılır.

**VIII.3. Normadan artıq uzunluq.** Komandalar memorandum üzrə II.4. müddəasında müəyyən olunmuş söz sayı limitini keçməyə görə limiti keçən hər 1- 100 arası söz üçün 3 (üç) balla cəzalandırılır. Cəza tətbiq olunan memorandum üzrə verilən hər qiymətdən cəza balı kimi çıxılır.

**VIII.4. Format və istinad səhvləri.** Memorandumda edilən format və ya istinad səhvləri ilə bağlı təyin olunmuş cəzalara uyğun olaraq memorandumun nəticəsindən müvafiq bal

çıxılır. Memorandumda yanlış şriftdən istifadəyə görə 2 (iki) bal, yanlış şrift ölçüsündən istifadəyə görə 2 (iki) bal, memoranduma daxil edilməli olan hissələrdən hər hansı birinin çatışmamasına görə hər çatışmayan hissə üçün 5 (beş) bal cəza müəyyən edilir.

**VIII.5. Plagiat halların müəyyənləşdirilməsi.** Memorandumlarda plagiarizmdən istifadə həmin memorandum üçün 1-50 bal aralığında cəza ilə nəticələnir. Plagiarizmdən istifadə həcmi əhəmiyyətli dərəcədə olarsa, iştirakçı komanda Müsabiqədən kənarlaşdırılır.

**VIII.6. Şifahi raundlara gecikmə.** Təşkilatçı III.7. qaydasında nəzərdə tutulmuş *ex parte* proses qərarını mövcud halları nəzərə alaraq təxirə salarsa, komandanın sessiyanın keçiriləcəyi yerə əvvəlcədən məlumat verilmiş tarixdə və saatda gəlməməsinə görə gecikilən hər 15 (on beş) dəqiqə 5 (beş) balla cəzalandırılır.

**VIII.7. Əlavə vasitələrdən istifadə.** Çıxış edən komanda üzvləri raundda saatdan istifadə edə bilərlər, lakin digər elektron vasitələrin istifadəsi qadağandır. Həmin vasitələrdən istifadəyə görə 5 (beş) bal cəza tətbiq olunur.

**VIII.8. Süni intellektdən istifadənin yolverilməzliyi.** Aşağıdakılar süni intellektdən istifadənin qaydalarını pozur:

i. Süni intellekt vasitəsilə yaradılmış mətni təqdim etmək, mətn sonradan dəyişdirilmiş və ya buna əlavələr edilmiş olunsa belə;

ii. TEC-in Müsabiqə ilə əlaqəli paylaşdığı materiallardan istifadə etməklə süni intellekti öyrətmək.

Süni intellektdən istifadə həmin memorandum üçün 1-50 bal aralığında cəza ilə nəticələnir. İstifadənin həcmi əhəmiyyətli dərəcədə olarsa, iştirakçı komanda Müsabiqədən kənarlaşdırılır.

**VIII.9. Diskresion cəza.** Peşəkarlığa, etikaya, habelə raundda və arbitrlərlə qərəzli davranış, rəqibləri ədalətsiz üstələmə cəhdləri, arbitrlərə kimlik barədə işarə vermə, arbitrlərin qiymətləndirmə müzakirəsinə müdaxilə kimi Müsabiqənin gedişatını maneə yaradan və Müsabiqənin məqsədlərinə zidd olan əməllər üzrə Təşkilatçı diskresion cəza tətbiq etmək hüququ vardır.

# IX. Nominasiyalar

Təşkilatçı *“Topçubaşov Arbitraj Müsabiqəsinin Qalibi”*, *“Topçubaşov Arbitraj Müsabiqəsinin Finalisti”* adından başqa, *"Ən Yaxşı İddiaçı Memorandumu"*, *"Ən Yaxşı Cavabdeh Memorandumu"*, *"Ən Yaxşı Natiq"* və Müsabiqənin məqsədləri üzrə uyğun bildiyi digər nominasiyalar üzrə qalibləri elan edə bilər.